**UOT 82-31**

# İSMAİL BOZKURTUN "NARİNGİLƏR YETİŞDİMİ?" ROMANINDA MÜHARİBƏ VƏ QADIN PROBLEMİ

**Lalə USUBZADƏ***

Məqalə redaksiyaya daxil olmuşdur: 23 yanvar 2025; çapa qəbul edilmişdir: 13 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 23th of January, 2025; accepted: 13th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *İsmail Bozkurt, "Naringilər yetişdimi?", Kıbrıs türk ədəbiyyatı, müharibə, qadın, cəmiyyət, sevgi*

## Giriş

İsmail Bozkurt 24 fevral 1940-cı ildə Kıbrısın Larnaka şəhərinin Boğaziçi kəndində dünyaya gəlib. O, 6 uşaqlı ailənin ilk övladı idi. Anası evdar qadın, atası isə fermer olub, sürücü və baqqal kimi müxtəlif işlərdə işləyərək ailəsini dolandırıb. İlk təhsilini kənd ibtidai məktəbində, daha sonra Larnaka türk orta məktəbində alıb. 1958-ci ildə Mağusa Namiq Kamal liseyini bitirdikdən sonra Ankara Universitetinin Siyasi Elmlər Fakültəsində təhsilini davam etdirib. Universitetdə oxuyarkən Siyasi Elmlər Fakültəsində Kıbrıslı Tələbələr Dərnəyinin sədri olub.

1962-ci ildə məzun olduqdan sonra Kıbrısa qayıdaraq. Türk Cəmiyyət Məclisinin Bələdiyyələr üzrə müfəttişi vəzifəsinə təyin edilib. 1955-ci ildə yaranan EOKA təşkilatının adada başlatdığı müharibə və 1963-cü ildə onların türklərə qarşı kütləvi qırğınlar törətməyə yönəlmiş "Akritas" planını həyata keçirməyə başlamasından sonra o, TMT sıralarında silahlı müqavimət hərəkatına qoşulub. 1964-cü ildə ətraf kəndləri birləşdirən Geçitkale-Boğaziçi bölgəsində mücahid komandiri olaraq fəaliyyət göstərib və bu vəzifəsini 1967-ci ilin sonuna qədər davam etdirib. Bu müddət ərzində "Mücahid" adlı həftəlik qəzet nəşr etdirib, bir çox sosial və mədəni tədbirlər təşkil edib, yerli futbol liqasının qurulmasına töhfə verib.

1968-ci ildə yenidən bələdiyyə müfəttişliyi vəzifəsində fəaliyyətini davam etdirib. 1970-ci ildə millət vəkili seçilib və 1990-cı ilə qədər bu vəzifədə təmsil olunub. 1975 və 1983-cü illərdə qurulan iki qurucu məclisdə iştirak edərək konstitusiyaların hazırlanmasında pay sahibi olub. Siyasi partiya lideri kimi də fəaliyyət göstərib.

1985-1986-cı illərdə Quzey Kıbrıs Türk Cümhuriyyətinin Turizm və Mədəniyyət naziri vəzifəsində çalışıb. 1990-cı il prezident seçkilərində namizədliyini irəli sürsə də, qalib gələ bilməyib. İsmayıl Bozkurt Kıbrıs türk xalqının çoxpartiyalı demokratik həyata keçidinə mühüm töhfələr verib. 1993-1995-ci illərdə Kıbrıs Türk Sənətçi və Yazıçılar Birliyinin, 1995-2002-ci illərdə isə Doğu Akdeniz Universiteti Kıbrıs Araşdırmaları Mərkəzinin rəhbəri olub. 1998-ci ildə KIBATEK-i (Kıbrıs, Balkanlar, Avrasiya, Türk Ədəbiyyatları Vəqfi) təsis edərək dünyanın müxtəlif bölgələrində təxminən 30-a

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* lalausubzada1@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.253**

yaxın elmi simpoziumun təşkilinə rəhbərlik edib. Bu qurumun 1998-ci ildən "Turnalar" adlı türk dili, ədəbiyyatı və tərcümə dərgisini nəşr etdirməyə başlayıb və 2013-cü ilə qədər onun baş redaktoru olub. Mərkəzi Berlində yerləşən PIAC (Daimi Altay Elmləri Konfransı) Mədəniyyət və İncəsənət Məsləhət Şurasında QKTC Prezident Aparatının Məsləhət Şurasına üzv olub.

İsmail Bozkurt Kıbrıs türk tarixində bir çox ilklərə imza atıb. Nazir olduğu dövrdə QKTC Mədəniyyət Nazirliyinin ilk kitab nəşrlərinə dəstək olub. Onun nazir olduğu dövrdə ilk dəfə kitab yarmarkası təşkil edilib. İlk Dövlət Rəsm və Heykəl Sərgisinin açılmasını o təmin edib. Kıbrısda ilk beynəlxalq xalq oyunları festivalını və ilk gözəllik müsabiqəsini təşkil edib.

Roman, hekayə, esse yazarı olan İsmayıl Bozkurt Kıbrıs türklərinin adadakı ictimai-siyasi məsələlərdən bəhs etməklə yanaşı, müharibənin təsirlərini də əsərlərində əks etdirmişdir. *"İsmail Bozkurt realist üslubda qələmə aldığı romanlarında ictimai həqiqətlərilə yanaşı, real məkanları və roman qəhrəmanlarının macəralarını təsvir edir. Roman qəhrəmanlarının təcrübədən keçirdiyi, dərk etdiyi və bu səbəbdən kollektiv şüurla əlaqələndirilə biləcək davranışları kollektiv reallığa çevrilir"* (1, s.50). Onun "Yusufcuklar Oldu mu?" (1991), "Manqal" (1995), "Bir gün bəlkə" (2003), "Bir gecədə" (2005) və "Qəza" (2016) adlı romanlarında milli şüurla hərəkət edən, fərdi mübarizələri qədər cəmiyyətin böhranlarını da dərindən yaşayan obrazlar yer alır. 1950-1960-cı illərdə rumların türklərə qarşı törətdikləri zorakılıqlar, TMT-nin apardığı mübarizə onun əsərlərində aydın şəkildə təsvir olunub. "İsmail Bozkurt 1990-cı illərdən bu günə qədər nəşr etdiyi beş romanı ilə Kıbrıs türk ədəbiyyatında öz dəst-xətilə seçilən yazıçıdır. Onun romanlarını uğurlu edən əsas amillər Kıbrıs türklərinin mübarizəsini həyat təcrübəsinə əsaslanaraq işləməsi, Kıbrısı və Kıbrıs türklərini realist şəkildə təsvir etməsi və xalq mədəniyyəti ünsürlərindən uğurla faydalanmasıdır" (5, s. 4). Üç romanı müxtəlif dillərə tərcümə edilərək çap olunub. 15 araşdırma kitabı nəşr edilib. Məqalələri Quzey Kıbrıs, Türkiyə, Azərbaycan, Özbəkistan, Macarıstan və Estoniya kimi ölkələrdə nəşr olunub. Üç dəfə fəxri doktor adına layiq görülüb. Müxtəlif qəzet və jurnallarda esse, səyahət qeydləri, hekayə və köşə yazıları dərc edilib.

## 1. "Naringilər yetişdimi?" romanında ailədaxili münasibətlərdə qadın

"Naringilər yetişdimi?" romanı 1987-ci ildə nəşr olunmuşdur. "Yusufcuk" Kıbrıs türkcəsində naringi və cırcırama mənalarını ifadə edir. Romanda Kamalın (Kemal) anası Faizə həyətlərində naringi ağacı əkir və onun bəhrəsini həvəslə gözləyir. Buna görə Kamal ondan tez-tez "Naringilər yetişdimi?" deyə soruşur. Şərq mədəniyyətində naringi səbir, xoşbəxtlik, ruhun yetkinləşməsini ifadə edir. Cırcırama isə təmizlik, saf sevgi mənalarını daşıyır. Hər iki simvolik mənanı əsərdə görmək mümkündür. Əslində *"Yusufcuklar oldu mu?"* sualı özündə simvolik məna daşıyır. Roman sadə, anlaşılan, hər təbəqədən insanın başa düşə biləcəyi bir dildə yazılmışdır. Kıbrıs dialektinə aid bəzi ifadələr işlədilmişdir (*yusufçuk, cira, isagül, verigo, cikla, Lefkara işi, macun, pulya*). Roman ailədaxili ziddiyyətlər üzərində qurulmuşdur. Bu təzadlar Kamalın psixologiyası və hadisələrin təsviri ilə bağlıdır (həyat – ölüm, kədər – səadət, varlı – kasıb). İstifadə edilən atalar sözləri və deyimlər də bu kontekstdə olmuşdur: *"Atın ölümü arpadan olsun", "Bam telinə toxunmaq", "Havadan nəm qapmaq", "Baltanı daşa vurmaq", "Altından çox sular axmaq"*və s.

İsmail Bozkurt romanda Kıbrısda baş verən hadisələrin insanların daxili aləminə vurduğu zərbələri, kiçik maraqlara əsaslanan siyasi çəkişmələri və ictimai təlatümləri uğurla təsvir etmişdir. *"Bəzi yazıçılar real kimliklərindən çıxış edərək qurduqları roman qəhrəmanları vasitəsilə öz həyatlarına, ətraf mühitlərinə və sosial strukturlara dair*

*önəmli məlumatlar təqdim edirlər. İlk romanı "Naringilər yetişdimi?" 1987-ci ildə nəşr olunan Bozkurt da bu yazıçılardan biridir. Onun romanlarında Kıbrıs türk cəmiyyətinin varoluş mübarizəsində birbaşa iştirak etməsi və uzun illər siyasətlə məşğul olması səbəbilə Kıbrıs türklərinin çətinlikləri və mübarizələri aydın şəkildə əks olunmuşdur"* (4, s.3). Romanın qəhrəmanı Kamal bir çox çətinliklərlə üzləşir. Ankarada hüquq təhsili aldıqdan sonra adaya qayıdan Kamal vəkillik etmək əvəzinə bir nazirlikdə məmur kimi işləməyi seçir. 1963-cü il hadisələrində TMT-də fəal olaraq müxtəlif vəzifələr yerinə yetirir. O, dürüstlüyü və zəhmətkeşliyi ilə tanınır. Şəxsi maraqlarına uyğun hərəkət etmir, dağılmış sistemdən faydalanmağa çalışmır. Lakin onun dürüstlüyü ətrafındakıları narahat edir. Kamal dövlət partiyalarında "bitərəf" mövqe tutur. Onun fikrincə, Kıbrıs problemi həll olunmadan, mübarizə davam edərkən partiyalara bölünməyin və siyasi mübarizələr aparmağın mənası yoxdur. Kamal bu qarışıq sistemin içində özünü itirir. Metin Turan yazır: *"Romanda siyasi təzyiq təkcə dövlət qurumlarına deyil, həm də özəl sektora sirayət etmişdir. Partiya ilə əlaqəsi olan sahibkarlar partiya üzvü olmayanlara iş vermir və ya onları işdən çıxarırlar"* (6, s. 46). Kamalın zəhmətkeşliyi, qərəzsizliyi, ürəyindəki vətən sevgisi və dövlətinə xidmət etmək arzusu onu bu sistemdə yüksək mövqelərdə uzun müddət saxlamağa imkan vermir. Buna görə də vəzifəsindən uzaqlaşdırılır.

Kamalın uğursuzluğu yalnız iş həyatında deyil, şəxsi həyatında da davam edir. Universitet illərində sevdiyi qız olan Nilüfərlə müharibə illərində yolları ayrılır. Kamal Ayşə ilə evliliyində bu məcburi ayrılığın ağrısını yaşayır. Mehmet Çevik bunu belə təsvir edir: *"Romanda sevgi anlayışı sevgi üçbucağı şəklində işlənmişdir. Bu, Ayşə, Kemal və Nilufər arasında baş verən bir sevgidir"* (3, s.7). İllər sonra, məhz vəzifəsindən uzaqlaşdırıldığı zaman Nilüfər varlı dul qadın olaraq yenidən qarşısına çıxır. Onunla evlənərək İstanbulda şirkətlərə sahib ola bilər. Lakin bu yol ayrıcında Kamal vətənində qalmağı, evliliyini davam etdirməyi və oğlu Doğuşu yetişdirməyi seçir. O, təqaüdə çıxaraq müstəqil vəkil kimi fəaliyyət göstərməyə qərar verir. Romanda onun bu mənəvi yetkinləşməsi xüsusi olaraq yer alır.

Əsərdəki əsas qadın obrazı olan Ayşə Kamalın həyat yoldaşıdır. Kamalın soyuq davranmasına baxmayaraq, Ayşə hələ evlənməmişdən əvvəl onu gizlicə sevirdi. Evləndikdən sonra isə ona böyük sevgi və diqqət göstərir. Əri ona qarşılıq verməsə də, o, yoldaşına böyük hörmət göstərir. Müəyyən müddət sonra isə artıq dözə bilməyəcək həddə çatır və oğlunu da götürüb atasının evinə gedir. Lakin valideynləri ilə gərginlik yaşayır. Burada o, əzab çəkir. Ayşə ən böyük dəstəyi qardaşı Yusufdan alır. Yusuf onunla səmimi, qayğıkeş bir münasibət qurur. Ayşə yoldaşının başqa bir qadınla görüşməsi xəbərini alanda evdən ayrılmaqla səhv etdiyini düşünməyə başlayır. Buna baxmayaraq, Kamalın boşanmaq təklifini qəbul edir. Lakin əri oğlunu öz yanında saxlamaq istəyəndə, Ayşə çox əsəbiləşir və buna heç vaxt icazə verməyəcəyini bildirir.

Kamal Ayşənin evdən getməsinin səbəbini tapa bilmirdi. Həmin gün səhər aralarında kiçik bir mübahisə olmuşdu. Lakin bu mübahisə evi tərk edəcək qədər böyük deyildi. Bu hadisələrdən sonra o, maşınına minib Mağusada tək yaşayan anasının yanına gedir. Kamalın ailəsi Geçitkaledə yaşayırdı. Kamal əslində universitet illərindən Nilüfəri sevirdi. Erenköydə olarkən onunla əlaqəsi kəsilir və həyat onları ayrı salır. Bundan sonra atasının istəyi ilə Ayşə ilə evlənir. 1963-cü ildə müharibə başlayanda Kamal cəbhəyə gedir. Bir-birinə dəstək olmaq məqsədilə qardaşlarının həyat yoldaşları, bacısı, arvadı Ayşə və uşaqlar eyni evdə toplanırlar. Düşünürdülər ki, bu şəkildə daha təhlükəsiz olarlar. Rumlar tərəfindən atılan mərmi onların üç yaşlı qızı Yasəmənin ölümünə səbəb olur. Kamal qızına nəzarət edə bilmədiyini düşündüyü üçün hər zaman həyat yoldaşını günahlandırır və onu bağışlamır. Onsuz da soyuq olan münasibətləri zamanla daha da pisləşir. Evdə elə davranır ki, sanki həyat yoldaşı yoxdur, onunla heç danışmır.

5 yaşlı oğlu Doğuş onun yeganə təsəllisinə çevrilir. Ayşə evi tərk etdiyi günün səhəri Kamala həftəsonu piknikə getmək istədiyini deyir, lakin Kamal razılaşmadığı üçün ilk dəfə o, səs tonunu yüksəldərək qışqırmışdı. Çünki artıq evdə bir əşyadan fərqi olduğunu, ailənin bir parçası olduğunu hiss etmirdi. Onun nə hiss etdiyi, nə istədiyi Kamal üçün zərrə qədər də önəmli deyildi.

Kamalın anası Faizə romandakı qadın obrazlarından biridir və o, tək yaşayır. Övladlarının onu ziyarət edəcəyi günləri həmişə səbirsizliklə gözləyir. Kamalı görəndə həm sevinir, həm də onu tək gördüyü üçün narahat olur. Kamal anasının yalnızlığını görüb yaşadıqları çətin günləri xatırlayır. 21 dekabr 1963-cü ildə onların həyatlarını alt-üst edən hadisələr baş verir. Rumlar Lefkoşada türklərə hücum edir. İskele və digər bölgələrdə qarşıdurmalar başlayır. Kənddən heç bir türk çıxa bilmir, ərzaq qıtlığı yaranır. Rumlar türklərə ərzaq, xüsusilə də çörək satmırlar. EOKA lideri türklərdən bütün silahlarını təhvil verməlerini tələb edir.

Kəndlərindən köç edəndə Kamal Ankarada universitetdə oxuyurdu. Artıq onlar qaçqın idilər. Geçitkaledə isə daxili narazılıqlar baş qaldırmışdı. 15 noyabr 1967-ci ildə hücumlar baş verir və rumlar böyük qüvvələrlə kəndə basqın ediblər. Kəndlilərdən və uşaqlardan çoxu şəhid olur. Rumlar qadın, uşaq, qoca demədən hamıya işgəncələr verirlər, alçaldıcı hərəkətlərlə onları qorxutmağa çalışırlar. Faizənin əri Osman rum əsgərlərinə əsir düşür. Yollarda insanları diri-diri yandıraraq öldürdülər, əsir götürdüklərini isə bir otağa toplayıb işgəncə edib sorğu-sual etdikdən sonra geri qaytarırlar. Bir gün Faizənin yataq xəstəsi olan qonşusunu da rum əsgərləri güllələyib öldürürlər. Bu hadisə ona böyük mənəvi sarsıntı vurur. İki il sonra Kamal universiteti bitirərək Ankaradan qayıdır. Quzey Kıbrısa köçdükdən sonra atası Osman xəstələnir və bir müddət sonra vəfat edir. Mehmet Yardımcı yazır: *"İsmail Bozkurtun birbaşa Kıbrıs türk cəmiyyətinin varoluş mübarizəsində iştirak etməsi və uzun illər siyasətlə məşğul olması səbəbindən, əsərlərinin hamısında Kıbrıs türklərinin çətinlikləri və mübarizələri təbii olaraq əks olunmuşdur. Bu romanların Kıbrıs türk tarixi və varoluş mübarizəsi haqqında məlumat verən önəmli bir mənbələr kimi qiymətləndirmək olar"* (7, s. 79). Kamalın həyat yolu da əslində yazıçının öz yaşadıqlarının bir hissəsidir.

## 2. Müharibə və qadın taleyi

Romanın növbəti hissələrində Kamal artıq keçmiş xatirələrdən ayılır. Kluba gedir və orada Muratla qarşılaşır. Murat şəhərin ən məşhur vəkillərindən biridir. Eyni zamanda hökumət partiyasını dəstəkləyir. Burhan isə müxalifət partiyasının millət vəkili idi. Buna görə də bəzən bir-birinə söz atırlar, mübahisə edirlər. Kamal dostlarına Ayşənin evi tərk etdiyini və işdən çıxarıldığını dedi. Dostları Kamalın Ayşəyə haqsızlıq etdiyini düşünürlər. Ayrılanda Murat "Salamis Bay" otelinə gedərək bir az da orada vaxt keçirməyi təklif edir və Kamal onunla gedir. Kamal otelin həyətində oturarkən Nilüfərlə qarşılaşır. İllər əvvəl Nilüfərlə Kamal bir-birilərini məktublaşaraq tanımışdılar. Nilüfər arada İstanbulda yaşayan xalası və dayısının yanına gedirdi. Burada Kamalla da görüşürdü. O vaxt bir-birilərini heç vaxt atmayacaqlarına söz vermişdilər. Amma Kamal Kıbrısa qayıdıb TMT-çilərlə Erenköyə çıxanda yolları ayrılmışdı. Kamal Nilüfəri çox axtarmış, amma tapa bilməmişdi. Nilüfər çox gözəl bir qadın idi. Valideynlərini itirəndən sonra dayısı onu himayəsinə götürmüş və onunla yaşayırdı. Kamal Erenköydə döyüşə gedəndən sonra bir-birlərindən xəbər ala bilməmişdilər. Nilüfər atasının (dayısına "ata" deyə xitab edirdi) istəyi ilə İstanbula köçmüşdü. Yenə atasının qərarı ilə Osman adlı qonşunun oğlu ilə evlənmişdi, amma uşaqları olmamışdı. Osman müxtəlif sahələrdə işini böyütmüş və holdinq sahibi olmuşdu. Amma bir gün avtomobil qəzasında dünyasını dəyişmiş və bütün sərvəti Nilüfərə qalmışdı.

Kamal Nilüfəri görəndə yenidən onunla birlikdə olmaq xəyalına düşür. Kamal Ayşədən boşanmağı düşünür. Beləliklə, hər ikisi azad olacaq və yarım qalan sevgilərini ömürlərinin sonuna qədər yaşayacaqdılar. Lakin Murat, Burhan, qardaşı Mustafa və anası Faizə Ayşənin haqlı olduğunu və boşanmamalı olduqlarını düşünürdülər. Bir neçə gün Kamal və Nilüfər bu ümidlə görüşməyə davam edirlər. Lakin hadisələr gözlənildiyi kimi cərəyan etmir. Nilüfərin vəziyyəti və gələcəkləri ilə bağlı qarşısına qoyulan şərtləri düşünən Kamal tərəddüdlər içində qalır. Tezliklə onun "bir qadınla görüşdüyü" barədə şayiələr yayılmağa başlayır. Həyat yoldaşı və oğlu da bu xəbəri eşidirlər. Kamal tamamilə ayrılmaq qərarına gəlmişkən, oğlunun yalvarışı və *"Bizi tərk etmə, baba!... Getmə o qadınla!"* (2 s. 133) hayqırışları qarşısında sarsılır. Bu travma onu dərin daxili mühakimə aparmağa vadar edir və Nilüfərlə gələcəyinin olmayacağına qərar verir. Əslində o, daxilən Nilüfərin yanına getmək istəmir, Ayşəyə nə qədər haqsızlıq etdiyini anlayır. *"İmkan verilsə, o da özünü sübut edər. Uyğun mühit tapan toxumun cücərməsi kimi. Mən onun şəxsiyyətinə heç bir əhəmiyyət vermədim. Əhəmiyyət vermək bir yana, ona hörmət belə etmədim. Onsuz da ailəsində təzyiq altında böyümüş, özünə qapanmış, şəxsiyyətini inkişaf etdirə bilməmişdi. Mən də ailəsinin etdiyini etdim ona…"* (2, s. 185). Nilüfərlə görüşüb ondan üzr istəyərək ayrılır. Daha sonra həyat yoldaşı və oğlunun yanına gedir, onlardan da üzr istəyib evə gətirir. Həyat yoldaşına çox böyük səhvlər etdiyini, ona insanlıqdan kənar davrandığını etiraf edir. Artıq hər şeyin dəyişəcəyini, ailə olaraq gözəl günlər keçirəcəklərini vəd edir. Beləliklə, xoşbəxt bir həyata başlayırlar. Kamal obrazını İlyas Əfəndiyevin "Söyüdlü arx" əsərindəki Muradla müqayisə edə bilərik. Hər iki obraz qəlbinin dərinliyindəki sevgi və ailə arasında qalır. Lakin burada Kamalın üstünlüyü ondadır ki, o, özü mənəvi çaxnaşmalardan keçərək doğru yolu tapır. Murad isə Nuriyyə tərəfindən doğru yola təşviq edilir.

İsmail Bozkurtun "Naringilər yetişdimi?" romanı təkcə milli kimlik və kollektiv yaddaş mövzularına toxunmur, eyni zamanda bu kollektiv taleyin içində qadının yerini, onun unudulmuş, susdurulmuş və kölgədə qalmış həyatını, həmçinin mənəvi gücünü diqqətə çatdırır.

**Nəticə**

Kıbrıs türk ədəbiyyatının zəngin bədii nümunələrindən biri olan "Naringilər yetişdimi?" romanı Kıbrıs türklərinin XX əsrin ortalarından sonlarına qədər olan dövrdə apardıqları mübarizə və yaşadıqları çətinliklərdən bəhs edir. Kıbrıs türklərinin apardıqları fərdi və ictimai mübarizə Kamalın simasında əks olunmuşdur. Roman həmçinin ictimai ədalətsizlikləri və problemləri göstərməklə yanaşı, fərdlərin bu problemlərə necə yanaşdığı, mənəvi mübarizələrin öhdəsindən necə gəldiklərini əks etdirir. Ailə birliyi və qadın gücünün dəyəri romanda əsas mövqeyə sahibdir. Kıbrıslı türk qadınlarının həyatında müharibə, köç, mədəni dəyərlərin aşınması kimi hadisələr onların taleyinə birbaşa təsir göstərmiş, onları ya susdurmuş, ya da məcburi itkilərlə üz-üzə qoymuşdur. Qadın obrazları bu romanda həm də cəmiyyətin, ailənin və gələcəyin necə bir inkişafa doğru gedəcəyinin göstəriciləridir.

**ƏDƏBİYYAT**

1. Aylanç M. İsmail Bozkurtun romanlarında realist roman kişileri ve karakterizasyon // Kıbrıs: Ulusalarası Kıbrıs Üniversitesi, 2016, c.22, №87, s. 22-32.
2. Bozkurt İ. Yusufcuklar Oldu mu?. İstanbul: Cem Yayınevi, 1991, 194 s.
3. Çevik M. İsmail Bozkurt'un aşkları // Turnalar, 2020, №80, s.6-19.

4. Şen C. İsmail Bozkurt'un Kaza Romanında Kıbrıs Türk Halk Kültürü // Türkiye Sosyal Araştırmalar Dergisi, 2020, №24, s.1-12.
5. Şen C. İsmail Bozkurt'un Romanlarına Hippolyte Taine'in Yaklaşımıyla Bakmak // Turnalar, 2020, №80, s. 56-59.
6. Turan M. Kıbrıs Türk Romanında Çıkarma Harekatı // Türkoloji Araştırmaları Dergisi, 2024, C.5, №2, s. 720-723.
7. Yardımcı M. Kuzey Kıbrıs Türk Cumhuriyeti'nde İsmail Bozkurt efsanesi // Turnalar, 2020, №80, s.77-80.

***Резюме***

***Лала Усубзаде***

***Проблемы войны и женщин в романе Исмаила Бозкурта «Созрели ли мандарины?»***

Исмаил Бозкурт — один из известных писателей кипрско-турецкой литературы. Он родился 24 февраля 1940 года в селе Богазичи города Ларнака на Кипре. Писал в жанрах романа, рассказа и эссе. В своих произведениях он освещает историю, культуру и политическую борьбу кипрских турок, основываясь на своем собственном жизненном опыте. В 1964 году он работал командиром мухаджиров в регионе Гечиткале-Богазичи, объединяющем близлежащие деревни. Творчество Бозкурта глубоко раскрывает политические трудности кипрских турок. Долгое время он также занимался политической деятельностью и занимал различные должности в Турецкой Республике Северного Кипра (ТРСК). Как писатель, он внес значительный вклад в становление и развитие кипрско-турецкой литературы. В его романах «Созрели ли мандарины?» (1991), «Мангал» (1995), «Однажды, может быть» (2003), «За одну ночь» (2005) и «Авария» (2016) представлены образы, движимые национальным самосознанием, глубоко переживающие не только личные, но и общественные кризисы. В романе Исмаила Бозкурта «Созрели ли мандарины?» представлены персонажи, олицетворяющие разные слои кипрско-турецкого общества. Главные герои сталкиваются с личными и общественными трудностями, ведут духовную борьбу. Главный герой Камаль — честный, трудолюбивый и патриотичный человек. Он сталкивается с различными трудностями как в личной жизни, так и в работе, но сохраняет свою духовную силу. Образ Айше символизирует кипрско-турецкую женщину, являясь олицетворением женской силы и выносливости. Образ Нилюфер передает ностальгию по прошлому и символизирует утраченную любовь, а также независимость и силу современных женщин. Герои романа «Созрели ли мандарины?» представляют различные слои и характеры кипрско-турецкого общества. Их жизненные истории отражают историческую, социальную и культурную ситуацию кипрских турок. Несмотря на личные и общественные трудности, они сохраняют свою духовную силу. Через свои персонажи Исмаил Бозкурт мастерски описывает проблемы и борьбу кипрско-турецкого общества.

**Ключевые слова:** *Исмаил Бозкурт, «Созрели ли мандарины?», кипрско-турецкая литература, война, женщина, общество, любовь.*

***Summary***

***Lala Usubzada***

***The Issues of War and Women in İsmail Bozkurt's Novel Have the Mandarins Ripened?***

İsmail Bozkurt is one of the prominent writers of Turkish Cypriot literature. He was born on February 24, 1940, in the village of Boğaziçi, Larnaca, Cyprus. He primarily writes novels, short stories, and essays. His works reflect the history, culture, and political struggles of Turkish Cypriots, drawing heavily from his own life experiences. In 1964, he served as a mujahid commander in the Geçitkale-Boğaziçi region, which united surrounding villages. Bozkurt's literary works extensively portray political difficulties. He was also actively involved in politics for a long time and held various positions in the Turkish Republic of Northern Cyprus (TRNC). As a writer, he made significant contributions to the

formation and development of Turkish Cypriot literature. His novels, such as Have the Mandarins Ripened? (1991), Mangal (1995), Maybe One Day (2003), In One Night (2005), and Accident (2016), feature characters driven by national consciousness, who experience both personal struggles and the broader crises of society. İsmail Bozkurt's novel Have the Mandarins Ripened? presents characters representing different strata of Turkish Cypriot society. The novel's protagonists face personal and social difficulties while engaging in deep moral struggles. The main character, Kamal, is an honest, hard-working, and patriotic individual. He encounters numerous challenges in both his personal and professional life but manages to maintain his inner strength. Ayşe symbolizes the Turkish Cypriot woman, embodying both the power and resilience of women. The character Nilüfer represents nostalgia for the past and lost love. She also reflects the independence and strength of modern women. The characters in Have the Mandarins Ripened? represent various segments and personalities of Turkish Cypriot society. Their life stories depict the historical, social, and cultural conditions of Turkish Cypriots. Despite facing individual and societal hardships, the protagonists preserve their moral strength. Through his characters, İsmail Bozkurt masterfully portrays the struggles and problems of Turkish Cypriot society.

**Key words:** *İsmail Bozkurt, Have the mandarins tipened?, Turkish Cypriot literature, war, women, society, love.*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.